**AZƏRBAYCAN RESPUBLİKASI**
**ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN KOLLEGİYASI**

# Q Ə R A R

**№ 3-17/3-5-29/2024**

**Bakı şəhəri** **"07" noyabr 2024-cü il**

## Peşə hazırlığı üzrə sertifikatın formasının təsdiq edilməsi barədə

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Peşə hazırlığı üzrə sertifikatın forması təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Hüquq şöbəsinə (G.İsgəndərova) tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə çatdırılmasını təmin etsin.
3. Nazirliyin Aparatının İctimaiyyətlə əlaqələr şöbəsinə (F.Talıbov) tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarixdən 72 saat müddətində elektron daşıyıcıda mətn faylları formasında rəsmi dərc edilməsini təmin etsin.

4. Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2022-ci il 17 yanvar tarixli 22040001074 nömrəli Əmri ilə müəyyən edilmiş vəzifə bölgüsünə əsasən həyata keçirilsin.

**Kollegiyanın sədri** **Sahil Babayev**

Azərbaycan Respublikasının Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 07 noyabr
2024-cü il tarixli 3-17/3-5-29/2024 nömrəli qərarı ilə
təsdiq edilmişdir.

# Peşə hazırlığı üzrə sertifikat

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Dövlət Məşğulluq Agentliyi

№:_______________

## Peşə hazırlığı üzrə

# SERTİFİKAT

______________________________________________________________

*Soyad, ad və ata adı*

İmtahan Komissiyasının______________ tarixli ___ nömrəli qərarı ilə

______________________________________________________________ üzrə

*Peşə / ixtisas adı*

peşə hazırlığı kursunu müvəffəqiyyətlə bitirmişdir.

Peşə hazırlığı kursunun müddəti: _______________ - _______________

______________________________ rəhbəri ______________________________

*Peşə hazırlığı müəssisəsinin adı* | *Ad, Soyad*

Tarix: ______________ İmza: ______________ *M.Y.*